Azad Azərbaycan

3

6 oktyabr / 2020

# Ruhun şad olsun Ulu Öndər, Suqovuşan da azad olundu!

## Mədət Məmmədov: *"Madagizin fəth edilib yenidən Suqovuşana çevrilməsi Heydər Əliyevin narahat ruhuna ən böyük ehtiramdır"*

**"Azad Azərbaycan" qəzetinin müsahibi Azərbaycan Jurnalistlərinin Həmrəyliyi Komitəsi İctimai Birliyinin sədri, H.Zərdabi media mükafatı laureatı Mədət Məmmədovdur.**



**- Mədət müəllim, Suqovuşanın işğaldan azad edildiyi gün Ulu Öndər Heydər Əliyevin 1993-cü il 3 oktyabrda ikinci dəfə hakimiyyətə gəldiyi gündür. Bunu necə dəyərləndirirsiniz?**

- Ruhun şad olsun, Ulu Öndər. Heydər Əliyev həmin vaxt hakimiyyətə qayıtmasaydı bu ölkənin taleyi sual altında qalacaqdı. Madagizin fəth edilib yenidən Suqovuşana çevrilməsi Onun narahat ruhuna ən böyük ehtiramdır.

**- Vətən müharibəsi adlandırdığımız Qarabağ müharibəsini necə şərh edərdiniz?**

- Bu müharibə insanların əsəblərini tarıma çəkən üzücü bir müharibəyə çevrildi. Otuz ilə yaxın uzanan ağır, əzablı, sonu görünməyən proseslər xalqımıza fiziki və mənəvi sarsıntılar yaşatdı. Biz bunu indi də yaşayırıq. 1994-cü ildə atəşkəs olmasaydı faciələrimiz pik həddinə çatacaqdı.

**- O vaxtlar səsimizi eşidən ölkələr yox dərəcəsində idi. Bəs indi necə?**

- Müsahibələrimin birində demişdim ki, Azərbaycan xalqı cənab İlham Əliyevi prezident seçməkdə səhv etməyibdir. Heydər Əliyevin uzaqgörənliklərindən biri də, Azərbaycan xalqına xidmət etməsi üçün İlham Əliyevi Prezident kimi yetişdirməsi olmuşdur. Bunun da nəticəsi göz qabağındadır. Cənab Prezidentin iradəsi, səbri, cəsarəti, heyrətamiz intellekti, idarəçilik məharəti olmasaydı mənfur niyyətləri ilə insanlığı bəşəriyyətin gözündən salmağa çalışan çirkin xislətli qonşularımızın öhdəsindən gəlmək çətin olardı. İndi beynəlxalq aləm ölkəmizi tanıyır və bizimlə hesablaşmaq məcbiriyyətində qalırlar. İlham Əliyev indi şanlı ordumuzun qanlı döyüşlərdə qazandığı qələbələri düşmən üzərində iqtisadi mübarizədə çoxdan qazanmışdı. Ermənistan dövləti bu siyasətin qarşısında neçə illər öncə məğlub olmuşdu. İndi dünyanın supergücləri Azərbaycanın yanındadır.

**- Sizcə elə ilk gündən məğlubiyyətlə üzləşən düşmən ölkə sülh danışıqlarına dair Azərbaycanın tələblərini yerinə yetirəcək, yoxsa ölkəsini tam şəkildə məhvə sürükləyəcək?**

- Artıq Ermənistanın baş naziri Paşinyanı nəinki öz ölkəsində, eləcə də dünyada siyasətə qoşulmuş oyuncaq hesab edirlər. Onun heç bir yolu qalmayıb. Sülhə razı olub olmayacağından asılı olmayaraq o, özünü və ölkəsini məhv edəcək. Millət vəkillərimizdən biri, bu günlərdə televiziyada çıxış edərkən diqqətçəkən bir məqama toxunaraq dedi ki, belə bir siyasi idiotun hakimiyyətdə qalması bizim üçün sərfəlidir. Çünki bu adamın verdiyi sərsəm bəyanatlar düşmən ölkəni məhvə sürükləyərək bizim tam qələbəmizi təmin edəcək və haqq işimizi dünya ictimaiyyətinə çatdıracaqdır.

**- Dağlıq Qarabağın işğaldan azad edilməsi həm Azərbaycan, həm də Qafqazın inkişafında hansı rolu oynayacaq?**

- Bu qələbə nəinki Qafqazda, eləcə də dünyada bu gün böyük nüfuza malik olan Azərbaycanın mövqelərini dəfələrlə möhkəmləndirəcək, Qafqazın geosiyasi vəziyyətini kökündən dəyişəcək, ölkəmizi dünyəvi dövlətlərdən birinə çevirəcək.

**- Qarabağ savaşının ölkə mediasında, eləcə də xarici mətbuatda işıqlandırılmasını necə şərh edərdiniz?**

- Bu savaş dövlətimizin, millətimizin taleyüklü məsələsidir. Ona görə də media təmsilçilərimiz çox diqqətli olmalıdır. Adi bir məsuliyyətsizlik düşmən dəyirmanına su tökə bilər. Eyni zamanda indi dünyada informasiya müharibəsi gedir. Bu müharibədə uduzmaq hər şeyi itirmək deməkdir. Fakta əsaslanmayan heç bir xəbərə inanmaq olmaz. Mediamız bu döyüşdə əsgərlərimizlə birlikdə ön cəbhədədir. Müharibədə qalib gəlməyimiz üçün əvəzsiz töhvələrini verirlər. Xarici mətbuatda da tutarlı faktlarla çıxış edirlər. Çox qürurla deyirəm: Möhtərəm Prezident, cənab Ali Baş Komandan cəmiyyətdə bütün döyüşlərin önündə gedən jurnalistlər ordusu sizinlədir!

**Zeynəb ƏKBƏR**